# TEXNİKİ MƏLUMAT VƏRƏQƏSİ

# FLOMAX® SL 220 FLEX

## Məhsul haqqında

**FLOMAX® SL 220 FLEX** - sement və akrilik əsaslı, polad lifli, iki komponentli, sənayə tipli öz-özünə yayıla bilən (self-leveling) döşəmə düzəltmə materialıdır.
**Məhsul kodu**: 204.50003

## İstifadə sahələri

- Fabrik, sənayə və anbar döşəmələrində
- Avtomobil dayanacaqları, qaraj və yollarda
- Yükləmə platformalarında
- Kauçuk təkərli maşın hərəkətlərinin olduğu yerlərdə
- Aşınmış və köhnəlmiş sənaye döşəmələrinin düzəldilməsində

## Üstünlükləri

- Düz səthə malikdir
- Asan və sürətlə tətbiq olunur
- 4-8 mm qalınlıqda tətbiq oluna bilər
- Aşınma və təzyiq müqaviməti yüksəkdir
- Tozsuz, möhkəm və uzun ömürlüdür
- Səthdə mükəmməl aderans əmələ gətirir
- Mexaniki zərbə və temperatur dəyişmələrindən təsirlənməz
- Donma və ərimə döngüsünə davamlıdır

## Texniki göstəriciləri

| | |
|---|---|
| Materialın tərkibi | Kopolimer akrilik dispersiya, minerlar dolğular, silisium tüstüsü, polad lif və xüsusi sement |
| Rəngi | Boz |
| Təzyiqə müqaviməti<br>7 gün<br>28 gün | <br>13 N/mm$^2$<br>21 N/mm$^2$ |
| Əyilmə müqaviməti (28 gün) | 8,8 N/mm2 |
| Qopma müqaviməti (28 gün) | 2,0 N/mm2 |
| Aşınma müqaviməti<br>CS 17 diski (ağırlıq itkisi)<br>H22 diski (ağırlıq itkisi) | <br>245 mq<br>301 mq |
| İstifadə müddəti | 30 dəqiqə |
| Tam kürlənmə müddəti | 24 saat |
| Üzərinə başqa material tətbiq | 3 gün |
| Qarışımın sıxlığı | 1,98 kg/lt |
| Piyada hərəkətinə açılma müddəti | 48 saat |

# TEXNİKİ MƏLUMAT VƏRƏQƏSİ

## FLOMAX® SL 220 FLEX

| | |
|---|---|
| Maşın hətəkətinə açılma müddəti | 72 saat |

*Yuxarıdakı göstəricilər +23°C-də və 50% nisbi rütubət üçün verilmişdir. Yüksək temperatur müddəti qısaldır, aşağı temperatur müddəti uzadır.*

### İstifadə təlimatı

### Səthin hazırlanması

Tətbiq sahəsinin sağlam, quru, təmiz, tozsuz və daşıyıcı olmasına diqqət edilməlidir. Səth, yapışmanı zəiflədəcək bütün yağ, boya, pas və parafin qalıqlarından təmizlənməlidir. Səthdə artıq qırıntılar olmamalı və səth nəmə doymuş olmalıdır. 24 saat ərzində donma təhlükəsi olan hava şəraitlərində tətbiq olunmamalıdır. Səthdəki çatlar və boşluqlar iki gün əvvəlcədən uyğun olan TAMCRETE® təmir materialları ilə təmir edilməlidir. Birbaşa günəş şüaları altında və güclü külək şəraitlərində tətbiq olunmamalıdır. Tətbiq olunacaq səthlər əvvəlcədən təzyiqli su və hava ilə təmizlənməlidir. İstifadə zamanı səthin əmiciliyini və hava qabarcıqlarını azaltmaq məqsədi ilə səth tətbiqdən 24 saat əvvəl FLOMAX® SL PRİMER astar materialı ilə ikiqat astarlanmalıdır. FLOMAX® SL 220 Flex qarışım nisbətinə görə istifadəyə hazır səthtlər üçün hazırlanmalıdır. Tətbiq olunacaq beton səthlərin müqaviməti, tip C20, ya da minimum 350 marka olmalı və səthlər ən azı 3 həftəlik olmalıdır. Səth betonunun qopma müqaviməti ən azı 1,5 N/mm$^2$ və səth temperaturu ən azı +10°C olmalıdır. 24 saat ərzində donma təhlükəsi olan hava şəraitlərində tətbiq olunmamalıdır. Birbaşa günəş şüaları altında və güclü külək şəraitlərində tətbiq olunmamalıdır.

### Qarışığın hazırlanması

İstifadə olunacaq su təmiz bir qaba doldurulur və həmin qaba FLOMAX® SL 220 FLEX materialı yavaş-yavaş əlavə edilərək 400 - 600 dövr/dəq-lik bir mikserlə 3-5 dəqiqə, topalar həll olunana qədər qarışdırılır. Təxminən 3-5 dəqiqə gözlədikdən sonra təkrar 1 dəqiqə qarışdırılaraq məhsul istifadəyə hazır hala gətirilir. Sərtləşmiş qarışığa təkrar olaraq su əlavə edərək istifadə etmək olmaz. Düzgün səthli bir döşəmə əldə etmək üçün kəsintisiz tədbiq gərəkir. Buna görə tədbik sahəsinin böyüklüyünə görə, tədbiqin davamlılığını təmin edəcək şəkildə birdən çox qarışdırma qabı istifadə edilməli və hazırlanan qarışıqlar ardıcıl şəkildə zəminə tökülərək yayılmalıdır. Yayılmadan sonra kirpi rulon vasitəsi ilə materialın havası alınmalıdır.

**Qeyd:** *Soyuq havalarda material tətbiq edilmədən 24 saat əvvəl isti bir şəraitdə saxlanılmalıdır.*

### Qarışım nisbəti

| | |
|---|---|
| 25 kq toz məhsul üçün | 8 kg B komponent |

### Sərfiyyat

1 mm qalınlıq əldə etmək üçün ~1,93 kq/m² toz məhsul.

# TEXNİKİ MƏLUMAT VƏRƏQƏSİ

## FLOMAX® SL 220 FLEX

### Alətlərin təmizlənməsi

Tətbiqdən sonra istifadə edilən alət və ləvazimatlar dərhal su ilə təmizlənməlidir. Məhsul bərkidikdən sonra ancaq mexaniki şəkildə səthdən təmizlənə bilər.

### Saxlama şərtləri

Açılmamış orijinal bağlamada (qablaşdırmada), sərin və quru şəraitdə saxlanmalıdır.

### Saxlama müddəti

Düzgün anbarlama şərtlərində, istehsal tarixindən etibarən 12 aydır.

### Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, iş və işçi sağlamlığı şərtlərinə uyğun iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Kürlənməmiş materialın qıcıqlandırıcı təsirlərinə görə, tərkiblər dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tədbiq olunan sahələrə qida məhsulları buraxılmamalıdır. Uşaqların əllərinin çatmayacağı yerlərdə anbarlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

### Cavabdehlik

Şirkətimiz sadəcə məhsulun keyfiyyətinə cavabdehdir. Məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflər xaricindəki və/və ya xətalı istifadələrdən şirkətimiz cavabdehlik daşımır. Daha ətraflı məlumat üçün məhsul kitabçası istəməyiniz və ya şirkətimizin cavabdehləri ilə əlaqə saxlamağınız xahiş olunur.

Net: 25 kq


**KARTAŞ LTD MMC**

Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəsəbəsi 7

www.mrfix.az

Tel: +994 12 347 00 10 , +994 12 347 10 10